**22 dekabr 2023-cü il tarixdə keçirilən Ali Məclisin payız sessiyasının səkkizinci iclasında Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədovun**

# M Ə R U Z Ə S İ

**Hörmətli Anar müəllim!**
**Hörmətli deputatlar!**
**Hörmətli hökumət üzvləri!**

Çıxışıma başlamazdan əvvəl qeyd etmək istərdim ki, artıq bir neçə müddətdir Ali Məclisin müvafiq komitələrində büdcə müzakirələri aktiv şəkildə aparılıb, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələrinin sessiya iclaslarında müzakirəyə çıxarılması qərara alınıb. Həmçinin Ali Məclisin sessiya iclaslarında büdcənin üç oxunuşda müzakirələri davam etdirilərək büdcə təsdiq olunub. Büdcə müzakirələrinin bu cür yüksək səviyyədə aparılmasına və səmərəli təşkilinə görə hörmətli deputatlara öz adımdan və hökumət üzvləri adından təşəkkürlərimi bildirirəm. İstər sessiya, istərsə də komitə iclaslarında deputatlar çox fəal iştirak edib və əhalini narahat edən məsələlərlə bağlı bir çox fikirlər səsləndirilib, hökumətə ünvanlanmış suallar tərəfimizdən cavablandırılıb və öncəki oxunuşlarda səsləndirilən bəzi problemlər artıq operativ şəkildə öz həllini tapıb. Qaldırılan bir sıra məsələlər, verilən təkliflər baxılması üçün hökumətin nəzarətinə götürülüb.

**Hörmətli deputatlar!**

Müstəqilliyin bərpa olunmasından sonra Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan Respublikası bütün sahələrdə inkişafa nail olub. Başa çatmaqda olan 2023-cü il ölkəmiz və muxtar respublikamız üçün uğurlu olub, mühüm hadisələrlə yadda qalıb.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər davam etdirilib, inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoyulub.

“Heydər Əliyev İli” çərçivəsində muxtar respublikanın müvafiq dövlət qurumları tərəfindən muxtar respublikamızın şəhər və rayonlarında, ümumilikdə, 1800-dən çox tədbir, konfrans və forumlar keçirilib.

2023-cü ildə Prezident İlham Əliyevin siyasi hakimiyyətə gəlişinin 20-ci ilində tarixin şanlı səhifəsi olaraq torpaqlarımızın tamamilə azad edilməsi, böyük Zəfərin qazanılması, Qarabağda separatçı qüvvələrin tərk-silah edilərək dövlət suverenliyimizin tam təmin olunması cənab Prezidentin xalqımız və müstəqil dövlətimiz qarşısında əvəzsiz xidmətlərindəndir. Bu nailiyyətlər müəyyən edilmiş inkişaf yolunun alternativsizliyini bir daha sübut etdi. Əzmkarlıq, siyasi iradə və yüksək vətənpərvərlik nümunəsi ən çətin şəraitdə də hərtərəfli inkişafın mümkünlüyünü göstərdi.

Ölkə başçısı tərəfindən Naxçıvan Muxtar Respublikasının inkişafı da daim diqqət mərkəzində saxlanılır. Naxçıvanda yeni idarəetmə institutunun yaradılması isə ölkə başçısının Şərqin qapısına növbəti diqqət və qayğısının təzahürüdür.

Mən qısaca olaraq başa vurmaqda olduğumuz ilin iqtisadi göstəriciləri haqqında bildirmək istəyirəm: 2023-cü ilin 11 ayında iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı **1 milyard 400 milyon manat** olub. Əhalinin hər nəfərinə düşən ümumi məhsul buraxılışı isə **4,7 min manat** təşkil edib. Həmçinin muxtar respublikada **554 milyon manat** dəyərində sənaye məhsulu istehsal edilib ki, bunun da **497 milyon manatı** və ya **89,9 faizi** malların, **56 milyon manatı** və ya **10,1 faizi** isə xidmətlərin payına düşüb.

Muxtar respublikada səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətini yüksəldib, əmtəə dövriyyəsinin həcmini genişləndirib, muxtar respublikada pərakəndə ticarət dövriyyəsi **1 milyard 66 milyon manat** təşkil edib. 2023-cü ilin 11 ayında **789** yeni iş yeri açılıb.

Cari dövrdə bütün maliyyə mənbələrindən əsas kapitala, ümumilikdə, **131 milyon manat** vəsait yönəldilib. Həmin vəsaitin **81,1 faizi** və ya **106,4 milyon manatı** tikinti-quraşdırma işlərinə sərf olunub. Muxtar respublikada tikinti-quraşdırma işləri və avtomobil yollarının təmir-tikintisi davam etdirilib. Tikinti-quraşdırma və əsaslı təmir üçün muxtar respublika büdcəsində nəzərdə tutulan vəsaitlər çərçivəsində: Naxçıvan və Şərur şəhərlərində yaşayış binalarının əsaslı təmiri və fasadının üzlənməsi, Şərur Sənaye Məhəlləsində işlərin davam etdirilməsi, Şərur rayon Mərkəzi və Uşaq Kitabxanası binasının yenidən qurulması, Avtovağzal binasının tikintisi, Təzəkənd kəndində orta məktəb binasının təmiri, Babək və Şahbuz rayonlarında məktəbdənkənar təhsil müəssisələri üçün binaların tikintisi, Babək şəhərində "Şəhidlər Parkı"nın tikintisi, abadlıq, bərpa-quruculuq işləri, Nehrəm qəsəbəsində 3 nömrəli 954 şagird yerlik tam orta məktəb binasının tikintisi, Nehrəm qəsəbəsi və Araz kəndində içməli su və kanalizasiya şəbəkəsinin, Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin çəkilməsi, Ordubad rayonunun Azadkənd kəndində 270 şagird yerlik tam orta məktəb, İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik və Xidmət Mərkəzi üçün binaların tikintisi, Kəngərli rayon Tarix-Diyarşünaslıq Muzeyi binasının və Duz İstehsalı Müəssisəsinin tikintisi işləri davam etdirilib.

Həmçinin 2023-cü ilin ötən dövründə muxtar respublika ərazisində avtomobil yollarının təmir-tikintisi üçün büdcədən vəsait ayrılıb və müvafiq olaraq işlər həyata keçirilib.

**Hörmətli sessiya iştirakçıları!**

2023-cü ilin 11 ayı ərzində Naxçıvan Muxtar Respublikasında **5 min 521** yeni vergi ödəyicisi qeydiyyata alınıb ki, bunlardan **4 min 996**-sı fiziki şəxslər, **525**-i isə hüquqi şəxslər olub. Ötən ilin eyni dövrü ilə müqayisədə qeydiyyata alınmış

vergi ödəyicilərinin sayı 1,9 dəfə, o cümlədən fiziki şəxslərin sayı 1,7 dəfə, hüquqi şəxslərin sayı isə 18 dəfə artırılıb.

2023-cü ilin ötən dövründə **2 min 554** ədəd yeni nəsil nəzarət-kassa aparatı quraşdırılıb, qeydə alınan dövriyyə **206 milyon** manat olub.

Muxtar respublika ərazisində dövlət vəsaiti hesabına malların, işlərin və xidmətlərin qanunvericiliyə uyğun satın alınması, satınalmalar zamanı dövlət vəsaitindən səmərəli və qənaətlə istifadə edilməsi istiqamətində tədbirlər görülüb. 2023-cü ilin 11 ayı ərzində satınalan dövlət müəssisə və təşkilatları tərəfindən keçirilmiş uğurlu müsabiqələrin nəticələrinə əsasən malların, işlərin və xidmətlərin ehtimal olunan qiymətləri ilə müqayisədə satınalınmalar zamanı **4 milyon 674 min manat** məbləğində dövlət vəsaitinə qənaət olunub.

Muxtar respublikada iqtisadi inkişafın davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə cənab Prezidentin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” təsdiq olunub. Dövlət Proqramının icrası muxtar respublikanın sosial-iqtisadi inkişafını və yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılmasını təmin edəcəkdir.

Həmin Sərəncamın icrası olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 sentyabr tarixli Sərəncamı ilə 2023-2024-cü illəri əhatə edən Təfsilatlı Tədbirlər Planı təsdiq edilib. Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilib.

2023-cü ilin ötən dövründə Tədbirlər Planının icrası ilə əlaqədar aidiyyəti qurumlar tərəfindən müvafiq infrastruktur layihələri üzrə texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması məqsədilə müvafiq tender müsabiqələri keçirilib. Eyni zamanda bir sıra tədbirlər üzrə aidiyyəti dövlət qurumları tərəfindən müvafiq işlərin icrasına başlanılıb. Dövlət Proqramının icrası

üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2023-cü ildə icra ediləcək layihələr üçün **44 milyon 680 min manat** vəsait ayrılıb. Ayrılmış vəsaitdən Naxçıvan Muxtar Respublikasında aqrar sektorun inkişafı, spesifik və orqanik kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi və təşviqinə 5 milyon manat, yerli əhəmiyyətli avtomobil yollarının tikintisinə 7 milyon manat, 87 MVt-lıq Naxçıvan Modul Elektrik Stansiyasının əsaslı təmirinə 7,2 milyon manat, mövcud elektrik enerjisi xətlərinin və yarımstansiyaların müasir tələblərə uyğun olaraq yenidən qurulmasına 2,8 milyon manat, müasir texnologiyaların tətbiq edilməsi ilə telekommunikasiya sisteminin keyfiyyətinin artırılmasına 5,4 milyon manat, fiber-optik magistral şəbəkənin yenilənməsinə 2,2 milyon manat, torpaqların su ilə təminatının yaxşılaşdırılması ilə bağlı yeni nasos stansiyalarının tikintisi və meliorasiya-irriqasiya sahəsində nəqliyyat-texnika parkının yenilənməsinə 3,6 milyon manat, ümumtəhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə 1,5 milyon manat, mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və mədəniyyət sahəsinin inkişafına 2 milyon manat, tibb sahəsi üzrə dövlət xidmətlərinin inkişaf etdirilməsinə 1,1 milyon manat, ətraf mühitin mühafizəsinin gücləndirilməsi, meşəsalma və meşəbərpa tədbirlərinin görülməsinə 1 milyon manat, kommunal təyinatlı texnikaların alınmasına 1,2 milyon manat yönəldilib.

**Hörmətli sesiya iştirakçıları!**

Muxtar respublikanın 2024-cü il təsdiq olunmuş büdcəsində əsaslı xərclərin yeni reallıqlar nəzərə alınmaqla, Naxçıvanın gələcək sosial-iqtisadi inkişafı ilə bağlı mühüm əhəmiyyətə malik tədbirlərin maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulur. 2024-cü ilin büdcəsi iqtisadi sabitliyin və büdcə dayanıqlılığının təmin edilməsinə, sosial infrastrukturun inkişaf etdirilməsinə, vacib prioritet layihələrin maliyyələşdirilməsinə, aztəminatlı əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına imkan verəcəkdir.

2024-cü ilin büdcə gəlirləri 2023-cü ilə münasibətdə **20 milyon 883 min manat** və ya **13,7 faiz** çoxdur.

2024-cü ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir və xərclərini tənzimləmək üçün Azərbaycan Respublikası dövlət büdcəsindən **343 milyon 260 min manat** dotasiya ayrılması nəzərdə tutulur. Dotasiya büdcə xərclərinin **66,5 faizini** təşkil etməklə 2023-cü ilin büdcəsi ilə müqayisədə **109 milyon 531 min manat** və ya **24,2 faiz** az proqnozlaşdırılıb.

2024-cü ildə muxtar respublika büdcəsinin xərcləri **516 milyon 365 min manat** məbləğində proqnozlaşdırılır ki, bu da 2023-cü ilin büdcəsi ilə müqayisədə **88 milyon 648 min manat** və ya **14,7 faiz** azdır.

İqtisadi təsnifata uyğun olaraq 2024-cü il Naxçıvan Muxtar Respublikası büdcəsində əməyin ödənişinə **328 milyon 080 min** manat və ya xərclərin **63,5 faizi** həcmində, malların, işlərin və xidmətlərin satın alınmasına **82 milyon 498 min manat** və ya xərclərin **16 faizi** həcmində, subsidiyaların ödənilməsinə **32 milyon 307 min manat** və ya xərclərin **6,3 faizi** həcmində, digər ödənişlərə **9 milyon 970 min manat** və ya xərclərin **1,9 faizi** həcmində, sosial ödənişlərə **5 milyon 838 min manat** və ya xərclərin **1,1 faizi** həcmində, qeyri-maliyyə aktivlərinin alınmasına **57 milyon 672 min manat** və ya xərclərin **11,2 faizi** həcmində vəsait proqnozlaşdırılır.

2024-cü il Naxçıvan Muxtar Respublikası büdcəsinin xərclərində sosialyönümlü xərclərin xüsusi çəkisi **67 faiz** səviyyəsində və ya **346 milyon 209 min manat** məbləğində müəyyənləşdirilib.

Təhsil xərcləri büdcə xərclərinin **31,1 faizi** həcmində, **160 milyon 831 min manat** vəsait proqnozlaşdırılıb.

Səhiyyə xərclərinə büdcədən **11 milyon 937 min manat,** tibb müəssisələrinin maliyyələşməsinə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən **79 milyon 280 min manat** olmaqla, ümumilikdə, **91 milyon 217 min**

**manat** vəsait ayrılacaqdır ki, bu da 2023-cü illə müqayisədə **5 milyon 312 min manat** və ya 6,2 faiz çoxdur.

Ayrılmış vəsaitdən **5 milyon 55 min manat** şəkərli diabet, xroniki böyrək çatışmazlığı, hemofiliya, talassemiya və səhiyyə sahəsindəki digər tədbirlərə sərf ediləcəkdir.

Növbəti ilin büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün **22 milyon manat** məbləğində vəsait nəzərdə tutulub. Bu sahədə nəzərdə tutulmuş vəsait muxtar respublikada istehsal və sosial-mədəni təyinatlı müəssisələrin tikintisinə, mövcud olan infrastrukturun yenidən qurulmasına, əsaslı təmirinə və digər zəruri hesab edilən dövlət əhəmiyyətli prioritet layihələrin və tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcəkdir. İlkin olaraq mərkəzi və yerli icra hakimiyyətlərinin və deputatların təklifləri nəzər alınmaqla rayonlarda "Şəhidlər Parkı" abidə kompleksinin qurulması, Babək rayonunun Hacıvar kənd və Kəngərli rayonunun Qıvraq qəsəbəsində tam orta məktəb binalarının tikintisi, Nehrəm qəsəbəsində yeni uşaq bağçasının tikintisi, Culfa rayonunun Dizə kəndində əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün uzunluğu 6,2 km, diametri 315 mm olan təzyiqli boru xəttinin çəkilməsi və digər zəruri işlərin görülməsinə maliyyə vəsaiti ayrılması nəzərdə tutulur.

Muxtar respublikanın təsdiq olunmuş büdcəsində avtomobil yollarının saxlanılması, əsaslı və cari təmiri üçün **16,6 milyon manat** məbləğində vəsait nəzərdə tutulub. Vəsait muxtar respublikanın ehtiyac duyulan avtomobil yollarının əsaslı və cari təmirinə, həmçinin yenidən qurulmasına xərclənəcəkdir.

2024-cü ilin büdcə xərclərinin 2023-cü illə müqayisədə **88,6 milyon manat** azalmasının əsas səbəbləri xərclərin optimallaşdırılması və bir sıra dövlət orqanlarının saxlanma xərclərinin mərkəzə ötürülməsidir. Bundan əlavə sosial müavinət və təqaüdlərin maliyyələşdirilməsi mərkəzi büdcədən təmin ediləcəkdir.

2024-cü il Naxçıvan Muxtar Respublikası büdcəsində xərclərin optimallaşdırılması, büdcə xərclərinin səmərəliliyinin daha da artırılması,

qanunvericilik, hüquq-mühafizə, elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, kənd təsərrüfatı və digər sahələrin infrastrukturunun, maddi texniki bazasının yenilənməsi, habelə büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatların büdcə sifarişləri və gözlənilən büdcə gəlirləri nəzərə alınmaqla hazırlanıb. Hazırlanmış büdcə qarşıdakı maliyyə ilində nəzərdə tutulan bütün zəruri iş və tədbirlərin maliyyə təminatını təmin edəcəkdir.

Muxtar respublika büdcəsindən əlavə olaraq Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan işlərin icrasının maliyyələşdirilməsi üçün **249,1 milyon manat** vəsait nəzərdə tutulub. Nəzərinizə çatdırmaq istərdim ki, bu məbləğ muxtar respublika büdcəsinin az qala 50 faizini təşkil edir. Əsas icraçı qurumlara ayrılması nəzərdə tutulan vəsait hesabına bitkiçiliyin, o cümlədən bağçılıq və üzümçülüyün təşviqi, müxtəlif turizm növlərinin inkişaf etdirilməsi, dövlət-özəl tərəfdaşlığı ilə alternativ və bərpa olunan enerji mənbələrinin yaradılmasının davam etdirilməsi, günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı layihələrin icrası, Biləv Su Elektrik Stansiyasının su kanalının əsaslı təmir edilməsi, yeni enerji dəhlizinin və Azərbaycan-Türkiyə yüksəkgərginlikli elektrik xəttinin layihələndirilməsi, yerli əhəmiyyətli avtomobil yollarının tikintisi, Araz Su Anbarından Heydər Əliyev Su Anbarına suyun verilməsi məqsədilə yeni nasos stansiyasının və diametri 1200 mm olan 30 km uzunluğunda qoşa boru xəttinin tikintisi, Naxçıvan şəhəri, Kəngərli və Babək rayonlarının ərazisində, ümumilikdə, 8300 hektar torpaq sahəsinin su təminatını yaxşılaşdırmaq üçün Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının tikintisinin davam etdirilməsi, Babək rayonunun Nehrəm qəsəbəsinin ərazisində su təminatını yaxşılaşdırmaq üçün "Araz-1" və "Araz-2" ikipilləli nasos stansiyasının və boru xəttinin əhatə dairəsinin genişləndirilməsi, muxtar respublikanın rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasının layihələndirilərək davam etdirilməsi, Naxçıvan şəhəri Əliabad qəsəbəsində yeni məktəb və məktəbəqədər təhsil kompleksi

binasının və 1000 şagird yerlik yeni məktəbin inşası, Naxçıvan Ailə Sağlamlıq Mərkəzinin tikintisi, Naxçıvan şəhərində yaşıllıqların suvarılması üçün texniki su kanallarının çəkilməsi və digər mühüm layihələrin reallaşdırılmasına sərf olunacaqdır.

Sosial-iqtisadi sahələrdə səmərəli tənzimləmə siyasətinin həyata keçirilməsi, qanunvericiliklə müəyyən edilən təşəbbüslərin dəstəklənməsi, təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasının həyata keçirilməsi muxtar respublikanın hərtərəfli inkişafına zəmin yaradacaqdır.

**Hörmətli sessiya iştirakçıları!**

Cənab Prezidentin müəyyən etdiyi hədəflərə çatmaq üçün qarşıya qoyulmuş bütün tapşırıq və vəzifələrin icrasını, bütövlüklə və yüksək keyfiyyətlə vaxtında təmin etmək üçün bundan sonra da var gücümüzlə çalışacağıq. Son bir il ərzində aparılan islahatlar, görülən işlər onu deməyə əsas verir ki, muxtar respublika büdcəsinin xərclərinin səmərəliliyi artırılacaq, maliyyə vəsaitlərinə nəzarət daha da gücləndiriləcək, büdcə daxilolmalarının artırılması istiqamətində görülən tədbirlər növbəti ildə də davam etdiriləcəkdir.

Sonda sizləri 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edir, sizlərə ən xoş arzularımı çatdırır, 2024-cü ildə fəaliyyətinizdə uğurlar diləyirəm.

**Diqqətinizə görə sağolun!**